

**CƏFƏROV TƏYYAR CÜMŞÜD OĞLU – 80**

AMEA-nın akamediki, fizika-riyaziyyat elmləri doktory, professor Təyyar Cümşüd oğlu Cəfərov bəkr cisim fizikası və yarımkeçiricilər elektonikası sahəsində böyuk elmi nailiyyətləri olan tanınmış alimdir. T.C.Cəfərov bir muddət (1962-1978) SSRİ Elmlər Akademiyasının A.F.İoffe adına Leningrad Fizika-Texnika İnstitutunda Diffuziya Prosesləri laboratoriyasının rəhbəri vəzifəsində çalışmış və burada namizədlik (1961) və doktorluk (1974) dissertasiyasını müdafiyə etmişdir. T.C.Cəfərov 1978-ci ildən Fizika İnstitutunda elmi katib, ladoratoriya rəhbəri, elm üzrə direktor müavini və hal hazırda "Günəş və hidrogen elementləri" laboratoriyasının rəhbəri vəzifəsində işləyir.

T.C.Cəfərovun elmi maraqları Yarımkeçiricilərdə və yarımkeçirici cihazlarda diffuziya hadisələri və nanoquruluşlu silisium əsaslı fotovoltaik günəş və hidrogen yanacaq elementləri ilə bağlıdır. Onun rəhbərliyi ilə bir sıra stabil parametrli yarımkeçirici cihazların (geterolazerlər, ışıq diodları, tunnel diodları, infraqırmızı detektorlar, günəş elementləri və s.) dıffuziya texnologiyası işlənmiş və tətbiq olmuşdur. Nanoquruluşlu silisium əsasında yüksək effektivliyə sahib silisium günəş elemenlərinin, yeni tip hidrogen elementlərin və sensorların texnologiyası işlənmiş və fulleren fotolüminessensiya intensivliyi məsaməli silisiumda kəskin şəkildə artması göstərilmişdir.

T.C.Cəfərov fəal elmi fəaliyyətini pedaqoji fəaliyyəti ilə birləşdirir. 1980-2015 illərdə Azərbaycan Neft və Kimya Akademiyasında, Yıldız Texnik Universitetində (İstanbul) və Azərbaycan Milli Aviasiya Akademiyasında yarımkeçiricilər və nanoelektronikanın fizikası sahəsində muhazirələr oxumuşdur.

T.C.Cəfərov 13 monografiyanın (ABŞ, Almaniya, Avsrtiya, Rusiya, Türkiyə, Azərbaycan), 330 xaricdə çap olunmuş məqələnin və 15 ixtiranın muəllifi, 25 doktorluk və namizədlik dissertasiyalarının elmi rəhbəri olmuşdur. O, bir necə Beynalxalq grantlara (NATO, TUBİTAK, STCU, DPT-Turkish state planning organization, AMEA və s.) rəhbərlik etmişdir.

Akademik T.C.Cəfərov *Per la Ricerca Di Base Universitetiin (Molize,İtaliya)* Fəxri Professorudur. Hazırda, T.Cəfərov MDB və Avropa ölkələrinin Elmlər Akademiyalarının Beynəlxalq Assosiasiyasının yanında "Elektronika texnikasının Funksional Materialları" Elmi Şurasının byor üzvüdür.

T.C.Cəfərov elmi nailiyyətlərinə görə SSRİ Elmlər Akademiyasının və AMEA Rəyasət Heyətinin Fəxri Fərmanları ilə təltif olunub.